

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 31 (24.168)

17 fevral 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## “Heydər Əliyev və dövlət gənclər siyasəti” mövzusunda tədbir olub



*Fevral ayının 16-da Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ədliyyə orqanlarında qeyd edilməsi ilə bağlı təsdiq etdiyi Tədbirlər Planına müvafiq olaraq gənc ədliyyə işçiləri və könüllülərinin iştirakı ilə Heydər Əliyev Muzeyində “Heydər Əliyev və gənclər siyasəti” mövzusunda tədbir təşkil edilib.*

Əvvəlcə Ümummilli Liderin Naxçıvan şəhərində ucaldılmış əzəmətli abidəsi önünə gül dəstələri qoyulub, əziz xatirəsi ehtiramla anılıb.

Tədbirdə əvvəlcə Ulu Öndərin Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev Ümummilli Liderin misilsiz dövlət idarəçiliyindən bəhs edərək Heydər Əliyev Muzeyinin yaradılması barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Naxçıvan şəhərində yerləşən bu muzey Ümummilli Liderin sağlığında yaradılan ilk muzeydir və 1999-cu il 10 may tarixdən fəaliyyət göstərməyə başlayıb. 2005-2006-cı illərdə əsaslı olaraq yenidən qurulan muzeyin 20 dekabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi baş tutub. Qeyd olunub ki, muzeydə hazırda 5000-dən çox eksponat mühafizə olunur.

Həmin eksponatlar Ümummilli Liderin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, onun mənalı həyatı, zəngin və çoxşaxəli fəaliyyəti barədə faktların gələcək nəslə çatdırılmasında böyük rol oynayır.

Nazirliyin əməkdaşları çıxış edərək bildiriblər ki, 2023-cü il Azərbaycan Respublikası Prezidenti tərəfindən ölkəmizdə “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar silsilə tədbirlər keçirilir. Çıxış edənlər xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyevin dövlət gənclər siyasətindən və ədliyyə sahəsində həyata keçirilən tədbirlərdən bəhs ediblər. Qeyd olunub ki, müasir Azərbaycan dövlətçiliyinin hərtərəfli inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Dahi şəxsiyyət hakimiyyətdə olduğu bütün dövrlərdə hüquq-mühafizə orqanlarına həssaslıqla yanaşmış, bu sahədə kadrların yetişdirilməsi, xüsusilə gənc kadrların vətənpərvər və dövlətçilik ruhunda formalaşması üçün əvəzsiz xidmətlər göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin dövlətçilik siyasətinin uğurla davam və inkişaf etdirildiyi, ölkəmizdə demokratik və hüquqi prinsiplərə əsaslanan ənənələrin layiqincə yaşadıldığı vurğulanıb.

İştirakçılar muzeydə Ulu Öndərin mənalı ömür yolundan bəhs edən filmə baxıb, dahi rəhbərin çoxşaxəli fəaliyyətindən bəhs edən maraqlı eksponatlarla tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikada hərbi qulluqçuların hüquqlarının müdafiəsi Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən daim diqqət mərkəzində saxlanılır.*

## Ombudsman hərbi qulluqçularla görüşüb



Fevralın 15-də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Günay Rzayeva tərəfindən preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu Əlahiddə Ümumqoşun Ordunun tabeliyində olan “N” hərbi hissəyə başçəkmə həyata keçirilib.

Başçəkmə zamanı müəssisənin əsgər yataqxanasına, istirahət, məişət və sinif otaqlarına, yeməkxanaya, ərzaq anbarına və digər obyektlərə baxış keçirilib, qidalanma səviyyəsi, asudə vaxtın təşkili və tibbi-sosial xidmətin təmin olunması vəziyyəti öyrənilib.

Hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi və rəftar məsələlərinin araşdırılması məqsədilə əsgər heyəti Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən ümumi və fərdi şəkildə qəbul edilərək konfidensial qaydada dinlənilib.

Ümumi qaydada qəbul zamanı hərbi qulluqçuların hüquqlarının daha etibarlı və səmərəli müdafiəsi ilə bağlı tapşırıq və tövsiyələr verilib, hüquqi maarifləndirici söhbət aparılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Naxçıvan Biznes Mərkəzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə dövlət satınalmaları üzrə təlim-seminar keçirilib.*

## Dövlət satınalmalarının təşkili üzrə təlim-seminar keçirilir



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev açaraq keçiriləcək təlim-seminarın əhəmiyyətindən danışıb, əməyi keçənlərə təşəkkür edib, uğurlar arzulayıb.

Sonra təlimlər başlayıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əməkdaşları Əhməd Həsənov, Zəminə Əliyeva və Aysel Bayramova tərəfindən təlimlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, digər satın alan təşkilatların nümayəndələrinin, sahibkarların iştirakı ilə 3 gün müddətində keçiriləcək. Təlimlər dövlət satınalmalarının planlaşdırılması, satınalmaların təşkili, satınalma metodları, iddiaçıların ixtisasına dair tələblər, tender təkliflərinin qiymətləndirilməsi və müqayisəsi, satınalmanın nəticələri, satınalma müqaviləsinin bağlanması və idarə olunması, şikayətlərin verilməsi və mübahisəli məsələlərin həlli kimi mövzuları əhatə edəcək.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri ***Tapdıq Əliyev*** “Şərq qapısı” qəzetinə müsahibəsində deyib:



– Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən dövlət qurumlarının, özəl sahibkarlıq subyektlərinin nümayəndələrinə dövlət satınalmalarının təşkili prosesinin reallaşdırılması, bu sahədə tam şəffaflığın təmin olunması və qanunvericilik bazasının həyata keçirilməsi istiqamətində təlimlərin keçirilməsinə başlanılıb. Əminik ki, muxtar respublikadakı bütün dövlət qurumları nümayəndələrinin iştirakı ilə bu sahədə peşəkar qabiliyyətləri, təcrübələri olan əməkdaşlar tərəfindən üç gün ərzində keçiriləcək təlimlər çox yüksək nəticələr verəcək. Beləliklə də, bütün dövlət satınalmalarının şəffaflığı, səmərəliliyi tam təmin olunacaq, bu sahədə tam bərabərhüquqlu rəqabət mühiti yaradılacaq, burada öz xidmətlərini təklif etmək istəyən sahibkarlıq subyektləri böyük inamla, sərbəst şəkildə öz məhsullarını təqdim edəcəklər. Bu da həm dövlət büdcəsinin vəsaitinə qənaət olunmasına, həm rəqabət mühitinin yaradılmasına, həm də dövlət və sahibkarlıq subyektləri arasında əlaqələrin daha da genişləndirilməsinə gətirib çıxaracaq. Tədbirin keçirilməsində əməyi keçən hər bir kəsə, xüsusilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əməkdaşlarına təşəkkürümü bildirirəm ki, təklifimizi nəzərə alaraq muxtar respublikada belə bir tədbirin keçirilməsi üçün Naxçıvana gəliblər, təlim keçəcəklər. Nəticələrin ən yüksək səviyyədə olacağına da əminəm. Uğurlar arzulayıram.

Onu da qeyd edim ki, müxtəlif mövzuları əhatə edən belə təlim-seminarlar davamlı şəkildə, bütün sahələr üzrə keçiriləcək. Bu günün tələbatını, dövlət qurumlarının müraciətini nəzərə alaraq ən çox tələb bu sahədə olduğu üçün ilkin olaraq satınalmadan başladıq. Proses qarşılıqlı şəkildə baş tutacaq. Belə ki, həm Naxçıvan Muxtar Respublikası ərazisində, həm də burada iqtisadiyyat sahəsi üzrə çalışan əməkdaşların ölkənin digər bölgələrinə ezam olunaraq oradakı fəaliyyətlə tanış olmaları həyata keçiriləcək. Beləliklə, kursların təşkili il ərzində davam etdiriləcək.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Dövlət satınalmalarına nəzarət şöbəsinin müdiri ***Əhməd Həsənov*** “Şərq qapısı” qəzetinə açıqlamasında bildirib ki, xidmət tərəfindən öz fəaliyyət istiqamətləri üzrə mütəmadi olaraq maarifləndirmə tədbirləri keçirilir. Bu gün isə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi ilə birlikdə həm satın alan təşkilatlar, həm də sahibkarlar üçün 3 günlük təlim-seminar proqramına başlayırıq. Proqramın məqsədi dövlət satın alan təşkilatlarını dövlət satınalma haqqında qanunun bütün müddəaları ilə tanış etmək, qanuna müvafiq olaraq satınalmaların təşkilinin birlikdə müzakirəsini aparmaqdır. Təlim çərçivəsində, eyni zamanda sahibkarlar dövlət satınalmalarında iştirak sahəsində maarifləndiriləcək, onların öz tender təkliflərini necə hazırlayıb hansı sənədlərlə birlikdə vaxtında satın alan təşkilatlara təqdim etməsi barədə müzakirələrimiz olacaqdır. Təlim-seminarlar gələcəkdə müxtəlif vaxtlarda periodik olaraq təşkil ediləcək.



**✍ Nail ƏSGƏROV**

## Şəhid ailələrinə ordenlər təqdim edilib



Fevralın 16-da Naxçıvan Şəhər İcra Hakimiyyətində Prezident cənab İlham Əliyevin 2022-ci il 5 noyabr tarixli Sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilən şəhid gizir Bağır Ələkbərov, şəhid, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları İslam Eyvazov və Xansu Qurbanovun ailələrinə ordenlər təqdim edilib.



Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənan Seyidov, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Anar Aqilov çıxış ediblər. Çıxışlarda Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüşlərdə vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Vətən oğullarının əziz xatirəsi yad edilib. Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin şanlı Vətən müharibəsində iştirak edən və şəhid olan qəhrəmanların şücaəti, cəsarəti gələcək nəsillərə örnəkdir. Şəhid, qazi və müharibə iştirakçılarına dövlətimiz xüsusi qayğı göstərir. Şəhid ailələrinə təqdim edilən ordenlər də bu qayğının təzahürüdür. Respublikamızın hər yerində olduğu kimi, muxtar respublikada da şəhid ailələrinin sosial problemləri aradan qaldırılır, mənzil-məişət şəraiti yaxşılaşdırılır və bu istiqamətdə tədbirlər ardıcıl olaraq davam etdiriləcək.

Çıxış edənlər torpaqlarımızın azadlığı uğrunda şəhid olanlara Allahdan rəhmət, qazilərə isə şəfa diləyiblər.

Sonra ordenlərin təqdimatı olub, şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

## Fövqəladə Hallar Nazirliyinə 4 yeni avtomobil və müxtəlif avadanlıqlar verilib



Son illər ölkəmizdə fövqəladə hallar orqanlarının fəaliyyətinin yüksək səviyyədə təmin edilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə bu gün muxtar respublikada da əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində məqsədyönlü tədbirlər reallaşdırılır, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin də maddi-texniki bazası ilbəil gücləndirilir, yeni xidməti avtomobillər və texniki vasitələr alınıb istifadəyə verilir.

Bu sahədə görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə müxtəlif texnogen, təbii qəzalar və yol-nəqliyyat hadisələri zamanı xüsusi xilasetmə işlərinin aparılması, yüklərin və köməkçi materialların daşınması üçün 1 ədəd avadanlıqları ilə birlikdə “Nissan Patrol” markalı, 2 ədəd “Lada Niva Travel” markalı və 1 ədəd “QAZEL” markalı avtomobil verilib. Bu avtomobillər xidmətin operativliyi baxımından mühüm əhəmiyyət kəsb edəcək.

Həmçinin nazirliyə 35, 55, 77, 90 KVA gücündə 5 generator, müxtəlif həcmdə yanğınsöndürmə balonları, məişət avadanlıqları, mövsümə uyğun geyim dəstləri, xüsusi geyim formaları və digər texniki vasitələr olmaqla, 91 adda müxtəlif təyinatlı avadanlıqlar verilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Bərpa olunan enerji mənbələrinin inşası üçün ərazilərin seçilməsi müzakirə olunub

Naxçıvan Muxtar Respublikası üzrə bərpa olunan enerji mənbələrinin inşası üçün təklif olunan ərazilərin müzakirəsi ilə bağlı Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində keçirilən tədbirdə Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin rəhbər şəxsləri və icraçı şirkətlərdən ibarət nümayəndə heyəti iştirak edib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə bildirib ki, Naxçıvanda yeni enerji layihələrinin reallaşdırılması və ixrac potensialının genişləndirilməsi qarşıda duran prioritet məsələlərdəndir. Ölkə Prezidentinin bu sahənin inkişafına göstərdiyi diqqət və qayğı sayəsində burada yeni elektrik stansiyalarının qurulması işi davamlı həyata keçirilir. Bərpa olunan enerji stansiyalarının tikintisi üçün uyğun ərazilər xidmət tərəfindən araşdırılır və aidiyyəti qurumlara təklif olunur.

Xidmət rəisi qeyd edib ki, muxtar respublika ərazisində mövcud torpaq fondunun 32 faizini kənd təsərrüfatına yararlı torpaqlar təşkil edir. Yararlı topaq sahələrinin az olmasını nəzərə alaraq belə layihələrin kənd təsərrüfatına yararsız ərazilərdə reallaşdırılması diqqətdə saxlanılır.

Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev qeyd edib ki, Naxçıvanda “Yaşıl enerji” layihələrinə, muxtar respublika üzərindən ixrac məsələlərinə diqqət artırılıb. Bunu energetika naziri Pərviz Şahbazovun iştirakı ilə fevralın 8-də Naxçıvanda keçirilən rəsmi görüşlər bir daha təsdiqlədi. Həmin görüşdə yeni enerji layihələri üzrə perspektivlər və qarşıda duran vəzifələr müzakirə edilmiş, konkret təkliflər verilmişdir. Həmin təkliflərlə əlaqədar keçirilən müzakirədə qarşılıqlı fikir mübadiləsi aparılacaq və Naxçıvan Muxtar Respublikası üzrə bərpa olunan enerji mənbələrinin inşası üçün təklif olunan ərazilərin planına uyğun olaraq yeni layihələr reallaşacaq.

Müzakirə zamanı Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin şöbə müdiri İntizar Həziyev Naxçıvan Muxtar Respublikası üzrə xəritə üzərində yeni enerji mənbələrinin qurulması üçün mümkün olan əraziləri təqdim edib. Bildirilib ki, həmin ərazilər Dövlət Energetika Xidmətinin əməkdaşları ilə birgə araşdırılıb və naturada baxış keçirilib.

Tədbirdə iştirakçıların müzakirələrlə bağlı fikirləri dinlənilib, verilən suallara aydınlıq gətirilib.

Sonra muxtar respublikada qurulması planlaşdırılan enerji mənbələri üçün təklif edilən ərazilərə yerində baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## “Prokurorluqda vətəndaşların qəbulu zamanı peşəkar davranışın mənəvi-psixoloji aspektləri” mövzusunda seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə keçirilən seminarda Prokurorluğun hüquqi təminat və və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov bildirib ki, müraciət etmək hüququ insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində ən mühüm hüquqi vasitələrdən biridir. Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları ilə ictimaiyyətin əlaqələrinin qarşılıqlı etimad əsasında qurulması, bu orqana edilən müraciətlərin vaxtında araşdırılması və zəruri tədbirlərin görülməsi, bütövlükdə isə vətəndaşların müraciət etmək hüququnun yüksək səviyyədə təmin edilməsi son illərin uğurlu fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir.



Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Aysel Nəcəfli qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə görə, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Əks halda, yəni vətəndaşların müraciətlərinə qanunla müəyyən olunmuş formada və müddətlərdə cavab verilməməsi onların bu hüququ həyata keçirməsini də əhəmiyyətsiz edir. Bu baxımdan vətəndaşların müraciətlərinə baxılması insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi sahəsində dövlət orqanlarının qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biridir.

Naxçıvan Müəllimlər İnstitutunun tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev vətəndaşların qəbulu zamanı etik dəyərlər və davranış standartları, vətəndaş qəbulunun psixoloji aspektləri, vətəndaşlarla ünsiyyət zamanı dövlət qulluqçusunun hərəkətləri və digər istiqamətlər üzrə peşəkar davranış qaydalarından bəhs edib.

Mövzu ətrafında Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları İbrahim Mənsimov və Aygül Əsədli çıxış etdikdən sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

**✍ Səbuhi HƏSƏNOV**

## Xalqın öz rəhbərinə olan inamı Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların tarixi torpaqlara, ata-baba yurdlarına qayıtmalarını təmin edəcək

*Qədim Azərbaycan torpağı Qərbi Azərbaycanın tarixi, eləcə də AMEA Naxçıvan Bölməsi tərəfindən bununla əlaqədar görülən işlər və qarşıya qoyulan məsələlər barədə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevlə həmsöhbət olduq:*

***– İsmayıl müəllim, xoş gördük sizi. Qərbi Azərbaycan qədim Azərbaycan torpağı olmasına baxmayaraq, ermənilər illərlə bu torpaqlardan azərbaycanlı irsini silməyə çalışdı. Lakin tarixi necə silmək olar? İsmayıl müəllim, Qərbi Azərbaycan haqqında bir də sizdən eşidək.***

– Qərbi Azərbaycan tarixi Azərbaycan ərazisidir. Burada bizim əcdadlarımız yaşamış, yaratmış və məkrli düşmənlərimiz nə qədər çalışsalar da, onların izlərini silə bilməmişlər. Bu ərazilərdə olmuş tarix və mədəniyyət abidələri, coğrafi adlar buranın sakinləri haqqında obyektiv məlumatlar verir. Ermənilər bu torpaqlara son əsrlərdə gəlmişlər, bu yerlərin aborigen sakinləri deyillər. Tarixi sənədlər və tarixi xəritələr, orta əsr səyyahlarının yol qeydləri Qərbi Azərbaycanın bizim tarixi torpağımız olduğunu sübut edir. Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, yaşayış yerlərinin tam əksəriyyəti Azərbaycan mənşəlidir. Qərbi Azərbaycan deyəndə İrəvan və Gümrü şəhərləri, Dərələyəz, Zəngibasar, Vedibasar, Göyçə, Dərəçiçək, Qərbi Zəngəzur, Mehri, Ağbaba bölgələri yada düşür. Qərbi Azərbaycan coğrafi ərazi kimi Şimali Azərbaycanın tarixi bir hissəsidir.

***– Ermənilər nə vaxtdan və hansı məqsədlə torpaqlarımıza köçürülüb?***

– Haylar deyilən ermənilər Balkan yarımadasında yaşamışlar. Həmin ərazidən qovulduqlarından Dəclə və Fərat çaylarının şimal ərazilərinə gəlib çıxmışlar. Erməni tarixçisi Q.Kapansyan yazır ki, “arim” adlanan Hind-Avropa tayfası Balkanlardan Kiçik Asiyanın Hetlər ölkəsinə yerləşdilər, sonra isə eradan əvvəl VII-VI əsrlərdə Ərmən yaylasına köçərək “ərmən” adlandılar. Ermənilər sonra zəifləmiş Urartu dövlətinin ərazisində peyda olmuşlar. Qaraqoyunluların hakimiyyəti dövründə hökmdar Cahanşahın icazəsi ilə 1441-ci ildə erməni katolikoslarının fəaliyyət mərkəzi Klikiyanın Sis şəhərində Azərbaycana – İrəvan yaxınlığındakı Üçkilsə (Üçmüədzin) monastırına köçürüldü. Beləliklə, Üçkilsə bütün ermənilərin dini mərkəzinə çevrildi. Səfəvi hökmdarları isə onlara əlverişli şərait yaratdı. Çar Rusiyasının köməyi ilə ermənilərə torpaq sahələri verildi. Rusiya ilə Qacarlar arasındakı müharibədən sonra – 1828-1830-cu illərdə İrandan Şimali Azərbaycana 40 min, Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb yerləşdirildi. Ermənilər Şimali Azərbaycan torpaqlarına – İrəvan, Naxçıvan və Qarabağ ərazilərinə xüsusi məqsədlə, yəni onlara daimi vətən yaratmaq niyyəti ilə köçürülürdü. Bu çirkin siyasətin həyata keçirilməsində Rusiya ordusunda xidmət edən erməni zabitləri fəal iştirak edirdilər. Köçürülən ermənilər İrəvan xanlığının 247 kəndində, Naxçıvan xanlığının 43 şəhər və kəndində və Ordubad dairəsinin 5 kəndində yerləşmişdir. Naxçıvana 2551, Ordubada isə 266 ailə köçürülmüşdü. 1918-ci il iyun ayında Batum müqaviləsinə görə, Azərbaycanın 9 min kvadratkilometr ərazisində Ararat (Ermənistan) Respublikası yaradıldı. İrəvan şəhəri isə paytaxt kimi Ermənistana verildi. Bununla kifayətlənməyən Ermənistan Azərbaycanın daha 20,8 min kvadratkilometr ərazilərini tutaraq sahəsini 29,8 min kvadratkilometrə çatdırdı. Bu da Ermənistan üçün son hədd deyildi.



***– Qərbi Azərbaycan torpaqlarının azərbaycanlısızlaşdırılmasına və Qarabağ münaqişəsinə hazırlıq mərhələsinə necə başlandı?***

– Ermənilər böyük dövlətlərin, xüsusilə çar və bolşevik Rusiyasının köməyi ilə dövlətlərini yaratdıqdan sonra özləri üçün qarşıya iki vəzifə qoymuşdular: Ərazilərini genişləndirmək, demoqrafik vəziyyəti özlərinin xeyrinə həll etmək. Onlar ikinci vəzifədən başlamışdılar. 1905-1906-cı illərdə azərbaycanlıların yaşadıqları ərazilərdə silah gücünə etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar. Bu vaxt onların hələ dövlətləri yox idi. Ermənilər Cənubi Qafqazın 14 qəzasında və 8 şəhərində kütləvi qırğınlar törətmişlər. Bu qırğınlar Qərbi Azərbaycan ərazilərini də əhatə etmişdi. Belə ki, Qərbi Azərbaycanın 200-ə qədər yaşayış məntəqəsi dağıdılmış, çoxsaylı azərbaycanlılar qətlə yetirilmişdi. Zəngəzur qəzasında 217 kənd, bütövlükdə, dağıdılmışdı, əhalinin xeyli hissəsi vəhşicəsinə öldürülmüşdü. Zəngəzur qəzasının 4,5 min kvadratkilometr ərazisi Ermənistana ilhaq edilmişdi. Həmin ərazidə 9-cu qəza olan Zəngəzur qəzası yaradıldı. 1929-cu ildə Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verilməklə Zəngəzurda daha bir erməni rayonu – Mehri rayonu təsis edildi. 1918-1920-ci illərdə Qərbi Azərbaycanın şəhər və kəndlərində yaşayan azərbaycanlılar soyqırımına məruz qaldı. Ermənilərin əsas məqsədi bu ərazilərdən azərbaycanlıların çıxarılması idi. Bunun üçün ən vəhşi vasitələrdən istifadə edirdilər. Qarabağ ermənilərin həmişə maraq dairələrində olub. Köçürülən ermənilərin müəyyən qismi burada yerləşdirilmişdi. 1920-ci ilin sonundan başlayaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün səy göstərirdilər. 1921-ci ilin iyun ayının əvvəllərində buna nail olmağa çox yaxın idilər. Nəriman Nərimanovun Vladimir İliç Leninlə danışığından sonra ermənilərin bu planı baş tutmadı. Belə olan halda onlar Azərbaycanın tərkibində Dağlıq Qarabağa muxtariyyət verilməsini istəyirdilər. 7 iyul 1923-cü ildə Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bu, əslində, Azərbaycanın daxilinə qoyulmuş bir mina idi, nə vaxtsa partlamalı idi. 1980-ci illərə qədər Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi üçün bir neçə dəfə təşəbbüs etmişdi, lakin bunun qarşısı alınmışdı. M.Qorboçovun SSRİ rəhbərliyinə gəlməsi, görkəmli dövlət xadimi Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosundan və Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrindən istefasından sonra ermənilər üçün əlverişli şərait yarandı. Həm də Azərbaycan rəhbərliyinə naşı və səriştəsiz adamların gəlməsi bunun qarşısını ala bilmədi. Ermənistan nəinki DQMV-ni, onun ətrafındakı 7 rayonu da işğal edə bildi.

***– İrəvanın və Zəngəzurun Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi bir sıra faciələrə yol açdı. Bu addımın Naxçıvanın taleyində rolu barədə nə demək olar?***

– Yuxarıda qeyd etdiyimiz kimi, daşnak Ermənistanı və sovet Ermənistanının İrəvan, Zəngəzur və Naxçıvanı Ermənistana birləşdirmək planı olub. Ermənistanda sovet hakimiyyəti 29 noyabr 1920-ci ildə qalib gələn kimi, İrəvanın paytaxt kimi Ermənistana verilməsini Azərbaycandan xahiş etdilər. Ermənistanın paytaxtı Gümrü şəhəri ola bilərdi. Lakin Ermənistan-Türkiyə müharibəsi nəticəsində birinci tərəf məğlub olmuş, Türkiyə Gümrü şəhərini tutmuş və geri qaytarmaq istəmirdi. Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli Qərarı ilə (Protokol № 3) 28 nəfərin 16-sı lehinə, 1-i əleyhinə, 3-ü bitərəf qalmaqla İrəvan Ermənistan Respublikasına verildi. Bu böyük tarixi səhv idi. Zəngəzura gəldikdə isə 1918-ci ildən daşnak Ermənistanı buranı işğal etmək üçün Azərbaycanla müharibə aparırdı. Bu döyüşlərdə 10 mindən çox müsəlman öldürülmüşdü. Andranik “Zəngəzur hökuməti” yaratmış və Gorusu “paytaxt” etmişdi. Zəngəzur qəzası mövcud olan dövrdə qəzanın 326 kəndinin 154-də Azərbaycan türkləri (46 faizə yaxın), yalnız 81-də (25 faizə yaxın) ermənilər yaşayırdılar. 1897-ci il siyahıyaalmanın nəticəsinə görə Zəngəzurun 142 minlik əhalisinin 72 minə yaxını azərbaycanlılar idi. 1919-cu ilin noyabrında ABŞ nümayəndələrinin iştirakı ilə danışıq aparılmış və hər iki tərəf öz qoşunlarını Zəngəzurdan çıxarmalarına söz vermişdilər. Azərbaycan tərəfi buna əməl etmiş, Ermənistan tərəfi isə, əksinə, əlavə qoşun yeritmiş və Zəngəzuru tutmuşdu. 1920-ci ilin sonunda isə Azərbaycanın xəbəri və iştirakı olmadan Rusiya Ermənistan arasında müqavilə imzalanmış, Zəngəzur Ermənistanın ərazisi kimi göstərilmişdir. Ermənistan sovetləşəndən sonra isə Azərbaycan da Zəngəzurun Ermənistan ərazisi olduğunu qəbul etmişdir. Bu da Sovet Azərbaycanının səhvi idi. Zəngəzurun itirilməsi Naxçıvanı Azərbaycandan ayırdı və Türk dünyası ilə əlaqəsini pozdu. Ermənistanın Zəngəzuru tutmaqda məqsədi gələcəkdə Naxçıvanı işğal etmək idi. Bu addımın Naxçıvanın taleyinə nə qədər mənfi təsir göstərdiyini biz bu gün də hiss edirik. Zəngəzur dəhlizinin açılmasına Ermənistan mane olur, halbuki bu ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Naxçıvanın Azərbaycanla sərhəd əlaqəsinin pozulması onun muxtariyyətini zəruri etdi. Ona görə də Ulu Öndər Heydər Əliyev qeyd etmişdi ki, Zəngəzurun itirilməsi olmasaydı, Naxçıvanın muxtariyyətinə də ehtiyac qalmazdı.

*Ardı 3-cü səhifədə*

*– Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın faciəsinə ilk dəfə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən siyasi qiymət verildi. Bu addım bir çox faktları da ortaya çıxardı...*

– Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı soyqırımlar ermənilər tərəfindən törədilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyası soyqırımı hadisələrini araşdırmağa başlamışdı. Lakin Azərbaycan sovetləşəndən sonra bunları davam etdirmək mümkün olmadı. Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyası isə 1947-1953-cü illərdə baş vermişdi. Xarici ölkələrdən gələn erməniləri Ermənistanda yerləşdirmək üçün azərbaycanlıları öz tarixi torpaqlarından, ata-baba yurdlarından könüllülük adı ilə zorla köçürdülər. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarları ilə Ermənistanın 24 rayonundan 145 mindən çox azərbaycanlı Kür-Araz ovalığına köçürüldü. Ermənistanın dağlıq ərazilərində yaşayan azərbaycanlıların Aran rayonlarına



köçürülməsi böyük tələfat və faciələrə gətirib çıxardı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra həmin hadisələrə siyasi qiymət verilməsi üçün şərait yarandı. Görkəmli dövlət xadimi Heydər Əliyev 1997 və 1998-ci illərdə Azərbaycanlıların deportasiyası və soyqırımı haqqında tarixi qərarlar imzaladı. Hər iki qərarda həm deportasiyanın səbəbləri, mahiyyəti, törətdiyi faciələr, həm də azərbaycanlılara qarşı ermənilərin soyqırımı etmələrinə siyasi qiymət verilmişdir. İki milyondan artıq azərbaycanlı soyqırımı və deportasiya siyasətinin qurbanı olmuşdur. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı və deportasiya siyasətini bu tarixi sənədlər obyektiv qiymət verməklə yanaşı, həm də deportasiya və soyqırımı siyasətini ifşa etdi. Bu tarixi qərarlar erməni şovinistlərinin və onların havadarlarının "türksüz Ermənistan" siyasətinin ifşasına, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin ağır nəticələrini açıb göstərdi.

*– 2010-cu ildə Qarabağın azərbaycanlı icması üçün mənzil-qərargahın yeni binası istifadəyə veriləndə dövlət başçısı məcburi köçkünlərə üç il bundan əvvəlki Qələbənin mesajlarını vermişdi. Əldə edilən tarixi Zəfər həm də Qərbi azərbaycanlılara doğma torpaqlarına qayıtmaq üçün böyük ümid yaratdı...*

– Ermənistanın Azərbaycana qarşı tutduğu mövqe, qarşıdurma və münaqişə yüz minlərlə insanı məcburi köçkünə çevirmişdi. Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon işğal edilmiş, 750 minə qədər insan yaşadıqları ərazidən zorla qovulmuşdu. Bu elə vəhşi üsullarla edilmişdi ki, nəticədə, soydaşlarımızdan 20 min nəfəri şəhid olmuş, 30 min nəfəri isə ağır yaralanmışdı. Onlar 30 ilə yaxın çətin şəraitdə yaşamışlar. BMT məcburi köçkünlərlə bağlı 4 qətnamə qəbul etsə də, həmin qərarlar icra olunmamışdır. ATƏT-in yaratdığı Minsk qrupu isə bu məsələni həll etmək istəməmişdir. Azərbaycan dövləti danışıqlar aparsa da, bu danışıqların səmərəsiz olduğunu görmüş, ölkəmizi iqtisadi və hərbi cəhətdən gücləndirmişdir. 2020-ci ilin sentyabr-noyabr aylarında – 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə düşmənə layiqli cavab verilmiş, onlar torpaqlarımızdan qovulmuş, ərazi bütövlüyümüz bərpa edilmişdir. 2010-cu ildə dövlət başçısı məcburi köçkünlərə Qələbənin mesajlarını verəndə qətiyyətlə inanırdı ki, ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik. Prezident cənab İlham Əliyevdə yüksək inam hissi var idi. Tarix xalqımızda, Qərbi azərbaycanlılarda böyük ümid yaratdı ki, zorla çıxarılmış tarixi torpaqlarımıza da qayıdacağıq. Bunun üçün qarşıya qoyulan vəzifələrə uyğun olaraq çalışmalıyıq. Qərbi Azərbaycanda azərbaycanlıların yaşadıqları kəndlərin çoxu boşdur. Ermənistanın nə insan resursları, nə də iqtisadi vəziyyəti həmin kəndlərin bərpasına imkan vermir.

*– Bilirsiniz ki, Prezident cənab İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış oldu və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdü. Bu görüş barədə fikirlərinizi öyrənək.*

– Bəli, qeyd etdiyiniz kimi, dövlətimizin başçısı Qərbi Azərbaycan İcması üçün ayrılmış binanın əsaslı təmiri və yenidənqurmadan sonra Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə burada görüşdü. Həmin binada vaxtilə Azərbaycan Qaçqınlar Cəmiyyəti yerləşirdi. Qeyd olunduğu kimi, Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. İctimai Birliyin adı dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilib. İcmanın yeni Nizamnaməsi təsdiq olunmaqla yanaşı, onun strukturu, işçi heyəti formalaşdırılıb. Təşkilat Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı ictimai qurumdur. Əhəmiyyətinə gəldikdə isə, Prezident cənab İlham Əliyev həmin görüşdə problemlərin həlli yolları haqqında həm giriş, həm də yekun nitqində bəhs etdi, qayıdış konsepsiyasının hazırlanması və onun icrası haqqında dəyərli fikirlər söylədi. Əminliyini bildirdi ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqdır. Çox yaxşı haldır ki, həmin görüşdən keçən bir ay sonra indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – Qayıdış Konsepsiyası hazırlanaraq geniş ictimaiyyətə təqdim olunub. Bu görüşün ən böyük əhəmiyyəti problemin dövlət səviyyəsində müzakirəsi və onun həlli yollarının müəyyən edilməsidir.

*– Prezident sözügedən görüşdə qeyd etdi ki, bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Bu tarixi nailiyyəti necə qiymətləndirərdiniz, bu, gələcəkdə bizi nələrdən sığortalaya bilər?*

– İkinci Qarabağ müharibəsi ilə son iki əsrdə ermənilərə ala bilmədikləri, gözləmədikləri dərslər verildi. İndiyə qədər Azərbaycan da belə yüksək tarixi qələbə qazana bilməmişdi. Dövlət-xalq-ordu birliyi bu qələbəni təmin etdi. Təbii ki, burada Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharətini xüsusi qeyd etməliyik. Ermənistan bu ağır məğlubiyyətdən lazımi nəticə çıxara bilmədi. Bəzi revanşist qüvvələr yenə də Azərbaycanı müharibə ilə hədələyirdi. Müharibədən sonrakı sentyabr döyüşü ermənilərə bir daha məğlub etdi. Onlarla yüksəkliklər ələ keçirildi. Bu yüksəkliklərlə erməni qüvvələrinin bütün hərəkət istiqamətlərinə nəzarət etmək, müşahidə etmək imkanları yarandı. Erməni hərbi hissələrinin yerdəyişmələri, silah-sursatla təmin edilməsi, müdafiə sisteminin qurulması Azərbaycan hərbçilərinin gözləri önündə baş verirdi. Ermənilər bundan gizlənə bilmirlər. Bu bizi gələcək döyüşlərdən sığortalaya bilir. Erməni ordusunun nə etdiyini bilməyimiz vaxtında tədbirlər görməyə, hərbi üstünlüyü qoruyub saxlamağa şərait yaradır.

*– Ermənilər Qarabağda, Qərbi Azərbaycanda xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədiblər. Lakin bu gün də dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Fikrinizcə, xalqımız, ziyalılarımız tərəfindən hansı addımlar atılmalıdır ki, haqq səsimizi daha yaxşı çatdıra bilək?*

– Xalqımıza qarşı törədilən bu cinayətlərin ən azı ikiəsrlik tarixi vardır. İkili siyasət hadisələri obyektiv qiymətləndirməyə imkan vermir. Qarabağ problemini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu arbitr rolunu oynaya bildimi? Minsk qrupunun hər üç həmsədri dünyanın taleyini "həll etmək" istəyində olan böyük dövlətlərin nümayəndələri idilər. Onlar 30 il oyun oynadılar, "Qarabağ problemi ancaq sülh yolu ilə həll edilə bilər" fikrini dönə-dönə təlqin edirdilər. Qarabağ problemi müharibə yolu ilə həll edilə bilməz, – deyirdilər. Nəticə onların dediyinin əksi oldu. Azərbaycan problemi həll etdi, özü də onların dediyi yol ilə yox. Problemlərimizi dünya xalqlarına dönə-dönə, ardıcıl, yorulub-usanmadan çatdırmalıyıq. Diaspor və lobbiçilik fəaliyyətini gücləndirməliyik. Böyük dövlətlərin idarəetmə strukturlarında yer almalıyıq. İnformasiya mübarizəsini bir an belə zəifləşdirməməliyik. Hər cəhətdən güclənməli, inkişaf etməliyik, birliyimizi qorumalıyıq, mübarizəmizi dinc yollarla davam etdirməliyik, başqa yolları da unutmamalıyıq.

*– İsmayıl müəllim, ölkə başçısının Qərbi Azərbaycan torpaqlarına mənəvi qayıdışın təməlini qoyan sərəncamları vardır. Bilirsiniz ki, Aşıq Ələsgərin 200 illik yubileyi ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında geniş şəkildə qeyd olundu.*

– Qərbi Azərbaycan torpağı ölkəmizə yüzlərlə dövlət xadimi, elm, təhsil işçisi, tanınmış mədəniyyət adamları, əmək qəhrəmanları, səhiyyə işçiləri vermişdir. Bunlarla əlaqədar dövlət başçımızın onlarla sərəncamları olmuş, bu torpağın məşhur təhsil müəssisələri, mədəniyyət ocaqları xalqımıza, geniş ictimaiyyətə tanıdılmışdır. İrəvan gimnaziyasının yaradılmasının 140 illiyi, xalçaçı-rəssam Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi ilə ölkə Prezidentinin Sərəncamından irəli gələn vəzifələr uğurla icra olunmuş, gimnaziyanın tarixi və yetirmələri haqqında kitab və monoqrafiyalar yazılmışdır. Bu sözləri İrəvan Azərbaycan Teatrı haqqında da demək olar. Prezident cənab İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması haqqında" 2021-ci il 18 fevral tarixli Sərəncamı ilə görkəmli söz ustadının yubileyi ölkəmizdə, eləcə də muxtar respublikamızda təntənəli şəkildə qeyd olundu. AMEA Naxçıvan Bölməsinə gəldikdə isə Aşıq Ələsgərə həsr olunmuş elmi konfrans keçirilmişdir. Bölmənin "Elmi əsərləri"nin xüsusi




nömrəsi Aşıq Ələsgərə həsr edilib. Kütləvi informasiya vasitələrində əməkdaşlarımızın elmi-kütləvi məqalələri çap olunmuşdur. Naxçıvan televiziyasında bölmə əməkdaşının aparıcılığı ilə 2 veriliş hazırlanmış və ictimaiyyətə təqdim edilmişdir və sair.

*– AMEA Naxçıvan Bölməsi, eləcə də onun Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu tərəfindən indiyədək Qərbi Azərbaycanın tarixinin tədqiqi ilə bağlı hansı işlər görülüb və kitablar dərc olunub?*

– Bölmədə çalışan elmi əməkdaşların tədqiqat istiqamətləri daha çox Naxçıvanla bağlı olsa da, tədqiqatlarda Qərbi Azərbaycana, onun ayrı-ayrı bölgələrinə də yer verilmişdir. Çünki Naxçıvanın tarixi ərazisinə Qərbi Azərbaycanın bəzi əraziləri vaxtilə daxil olduğundan həmin ərazilərin tarixi də bir sıra hallarda işlənilmişdir. "Naxçıvan abidələri ensiklopediyası"nda həmin ərazilərin abidələri də araşdırılmışdır. Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası və soyqırımı əməkdaşlarımızın kitab və monoqrafiyalarında öz əksini tapıb: "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", "Territorialnıe prityazaniya i krovavıe prestupleniya armyan protiv Azerbaydjana", "Ermənistanın soyqırımı və deportasiya siyasətində Naxçıvan", "İrəvan necə varsa. Keçmişdən bu günə" və digər monoqrafiyalar yazılmış, "Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri)" mövzusunda doktorluq dissertasiyası AMEA Naxçıvan Bölməsinin Dissertasiya Şurasında müdafiə olunmuşdur. Qərbi Azərbaycanın müxtəlif problemlərinə həsr olunmuş çoxsaylı elmi məqalələr ölkəmizin və xarici ölkələrin nüfuzlu jurnallarında dərc edilmişdir. Ölkə Prezidentinin Qərbi Azərbaycanla bağlı qarşıya qoyduğu vəzifələrin həllində AMEA Naxçıvan Bölməsinin humanitar və ictimai elm sahələrində çalışan elmi əməkdaşlarımız da yaxından iştirak edəcəklər.

*– Maraqlı müsahibə üçün minnətdaram.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Diaqnostika Müalicə Mərkəzində yeni maqnit rezonans tomoqrafiyası (MRT) cihazı istifadəyə verilib

"Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" Publik Hüquqi Şəxsin Radiologiya şöbəsində "Philips" şirkətinə məxsus "İngenia Elition X 1.5" Tesla gücündə yeni maqnit rezonans tomoqrafiyası (MRT) cihazı istifadəyə verilib. Tomoqrafiya koilləri ilə zəngin olan yeni maqnit rezonans tomoqrafiyası cihazı insan orqanizminin bütün orqan və toxumalarını müayinə etməyə və xəstəliklərin dəqiq diaqnostikasının aparılmasına imkan verir. "İngenia Elition X 1.5T" MRT cihazı vasitəsilə baş və onurğa beyin sistemi, qarın boşluğu orqanları, dayaq-hərəkət sistemi və orqanların müayinələri aparılır.



Müasir maqnit rezonans tomoqrafiya texnologiyasının ən qabaqcıl "İngenia Elition X 1.5T" MRT cihazında mövcud olan perfuziyon tomoqrafiya, tomoqrafiya spektroskopiya, diffuziyon tomoqrafiya, funksional MR ilə beyin-onurğa beyin görüntülənmələrində beyinin ən mürəkkəb xəstəliklərinin dəqiq diaqnozu mümkündür. Pediatrik yaş qrupunda beyin-onurğa beyin patologiyalarını aşkarlamaq və diaqnozu təyin etmək üçün yeni maqnit rezonans tomoqrafiya cihazı ayrıca pediatrik beyin-onurğa beyin koili ilə təchiz edilib. Eyni vaxtda bütün onurğa beynini bir dəfəyə çəkiliş etmək olur.

"İngenia Elition X 1.5T" MRT cihazında mövcud olan zəngin koil imkanları bütün bədənin tomoqrafiya müayinəsinin eyni vaxtda aparılmasında, xüsusilə onkoloji xəstələrdə xəstəliyin orqan və toxumalara yayılıb-yayılmadığını təyin etməkdə müstəsna əhəmiyyətə malikdir. Qapalı sahədə qorxusu olan klaustrofobiyalı xəstələr üçün tomoqrafiya boşluğunun geniş olması və tomoqrafiya otağında yerləşdirilmiş elektron monitor və işıqlanma sistemi xəstələrin rahat müayinəsinə imkan yaradır.

Qeyd edək ki, yeni cihazda tomoqrafiya boşluğunun genişliyi 70 santimetr olub, ən geniş diametrə sahibdir. Tomoqrafiya boşluğunun geniş, maqnit gücünün isə güclü olması ağırçəkili xəstələrin bütün müayinələrinin aparılmasına imkan verir. Eyni zamanda kiçik yaş qrupu xəstələrinin yatırılmadan müayinəsi üçün xüsusi görüntü effektləri ilə təchiz edilib. Müayinə zamanı xəstələrdə narahatlıq yaradan gur səs yeni cihazda digərlərinə görə daha aşağı tembrdə və müayinə vaxtı daha qısadır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "Naxçıvanbank"dan Türkiyəyə dəstək: 50 000 AZN ianə etdi

"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti qardaş Türkiyə Respublikasında baş verən zəlzələdən zərərçəkənlərə humanitar yardım məqsədilə AFAD fonduna 50 000 AZN ianə edib. Qeyd edək ki, hadisənin ilk günündən bankın əməkdaşları tərəfindən fərdi şəkildə zərərçəkənlər üçün ianə köçürmələri və yardımlar həyata keçirilib. Bundan əlavə, "Naxçıvanbank"ın kollektivi adından növbəti dəfə 500-dən çox ailənin ehtiyacını qarşılayacaq yardım qutuları hazırlanaraq Türkiyəyə yola salınıb.

Həmçinin bank müştərilər tərəfindən Türkiyəyə edilən ianə köçürmələri üzrə komissiyanı da ləğv edib. Bank üzərindən hər kəs Türkiyəyə ianə köçürmələrini əlavə dəyər vergisiz, komissiyasız və sürətli şəkildə həyata keçirə bilər.

"Naxçıvanbank" hər zaman qardaş Türkiyənin yanında olduğunu bildirir, faciədə həyatını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa, ailələrinə səbir diləyir.

**Xəbərlər şöbəsi**

*Xalqımızın tarixi qaynaqlarından süzülüb gələn bir ənənənin tərkib hissəsi, milli-mənəvi dəyərimizdir könüllülük. Könüllülük izləri xalqımızın qədim adət və ənənələrində, məişətində, mədəniyyətində, əmək, zəhmət nəğmələrindədir. Bu izlər atalarımızın söylədiyi "Güc birlikdədir", "Birlik harada, dirilik orada", "El bir olsa, dağ oynadar yerindən" kimi atalar sözlərində, dostluq, həmrəylik ifadə edən bayatılarımızdadır. Könüllülüyü dəyərli edən özündə xeyirxahlıq, nəciblik, mərhəmət, yaxşı əməl və mənəvi saflıq kimi xüsusiyyətləri cəmləyən müdrik xalqımızdır. O xalq ki, əsrlərboyu müxtəlif sarsıntılara, repressiyalara məruz qalmasına baxmayaraq, milli kimliyini, şərəf və heysiyyətini, dilini, mədəniyyətini, milli ənənələrini qoruyub saxlayıb. Azərbaycançılıq, multikulturalizm və tolerantlıq ideyalarının yaşadıldığı müasir, eyni zamanda milli-mənəvi dəyərlərə, milli köklərə bağlı sağlam cəmiyyətdə böyüyən indiki nəsil də bütün işlərdə, ən çətin məqamlarda birlik, bərabərlik nümayiş etdirməklə könüllülüyü bir dəyər kimi yaşadır.*

## Qardaşlarımıza könüldən dəstək



Azərbaycanda dövlət gənclər siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə gənclər arasındakı bu birlik, bərabərlik bağları daha da gücləndi. ***"Gənclər bizim gələcəyimizdir"***, – deyən böyük dövlət xadiminin Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli qüvvə kimi formalaşmasındakı rolu danılmazdır. Ulu Öndərin təşəbbüsü və iştirakı ilə 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan gənclərinin ilk forumu cəmiyyətin inkişafında Azərbaycan gənclərinin rolunun artmasına və məsuliyyətinin yüksəlməsinə, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaqla, eyni zamanda Azərbaycanda könüllülük fəaliyyətinə də böyük təkan verdi. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və BMT Könüllüləri Proqramına uyğun olaraq 1998-2000-ci illərdən başlayaraq ölkədə könüllülük prinsipləri geniş təbliğ edildi. 1985-ci ilin 5 dekabrında BMT tərəfindən elan olunan Beynəlxalq Könüllülər Günü hər il ölkəmizdə geniş şəkildə qeyd edilir.

Müasir dövrdə könüllülüyün bir hərəkat kimi geniş vüsət alması, yüksəlişi ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. 2009-cu ildə ilk dəfə olaraq məhz Azərbaycanda qəbul edilən "Könüllü fəaliyyət haqqında" Qanun ictimai və humanitar fəaliyyət üçün əsas olmaqla könüllülüyün ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etməsində, gənclərimizin həyat tərzinə çevrilməsində mühüm rol oynadı. Bu gün sistemli və inkişaf edən könüllülük hərəkatı özündə "ASAN Könüllüləri", "Gənc Könüllülər", "BİR Könüllü", "Aqrar İnkişaf Könüllüləri", "Naxçıvan Könüllüləri", "Böyük Qayıdış Könüllüləri", "Ekokönüllülər" və digər könüllü qruplarını birləşdirir ki, bu qruplarda fəaliyyət göstərən gənclər milli-mənəvi dəyərlərimiz əsasında inkişaf edir, bilik-bacarıqlarını artırır, məsuliyyətli vətəndaş kimi yetişir, dövlətin inkişafına öz töhfələrini verirlər. Bu gün sağlamlıq imkanı məhdud olan vətəndaşlarımız üçün də könüllülük imkanları yaradılıb. Ölkəmizdə keçirilən Avroviziya mahnı müsabiqəsi, I Avropa oyunları, "Formula 1" yarışları, IV İslam həmrəyliyi oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərdə könüllü gənclər əvəzsiz rol oynayıblar.

Ölkə başçısının müvafiq Sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi tarixi könüllülük ənənələrimizə verilən ən yüksək qiymətin təzahürü kimi gənclərdə sosial məsuliyyət hissini daha da artırdı. Dünyanın koronavirus pandemiyası ilə mübarizə apardığı bir dövrdə "Biz birlikdə güclüyük!" şüarı ilə gənc könüllülər ehtiyacı olan şəxslərə verilən ərzaq bağlamalarının ünvanlara çatdırılmasında, tənha və ahıl vətəndaşlara sosial xidmətlərin göstərilməsində, infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə maarifləndirmə işinin aparılmasında fəal iştirak etdilər. Həmin il sentyabrın 27-dən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlanan Vətən müharibəsində "Dəmir yumruq" ətrafında sıx birləşən xalqımız, ərazi bütövlüyümüz uğrunda cəbhəyə könüllü yollanan, qəhrəmancasına mübarizə aparıb şəhid olan igid oğullarımız könüllülüyün qürurverici nümunəsi oldular. İki aydan çoxdur ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyasında da ekofəallar və könüllü gənclərimiz ilk gündən etibarən dünya ictimaiyyətini ekologiyanı qorumağa çağırırlar.

Bu gün qədim diyarımız Naxçıvanda da könüllülük hərəkatı inkişaf edir. Ötən əsrin sonlarında mənfur ermənilərin hücumlarının qarşısında dağ kimi dayanan, könüllü batalyonların tərkibində sərhəd kəndlərimizi müdafiə edərək torpaqlarımızı erməni işğalından qoruyan, ötən əsrin 90-cı illərində Ümummilli Liderimiz Heydər Əliyevin ətrafında sıx birləşərək Azərbaycanın müstəqilliyinə öz layiqli töhfələrini verən könüllü naxçıvanlılar olub.

2018-ci ildə ölkəmizin "Gənclər paytaxtı" seçilən Naxçıvanda könüllülük hərəkatının öncülləri gənclərdir. Naxçıvan Muxtar Respublikası Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, sosial, ekologiya, idman, turizm könüllüləri,



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin könüllüləri fəaliyyət göstərir. Müxtəlif platformalarda könüllü olan gənclər yeni çağırışlara fəal münasibət, milli və bəşəri dəyərlərə hörmət kimi keyfiyyətlər qazanır, öyrənmək, əlaqələri zənginləşdirmək, uğurlu karyera qurmaq imkanı əldə edir, yaradıcı, təşəbbüskar iş və həyat təcrübəsinə, dünyagörüşə, sosial məsuliyyətə, sağlam düşüncəyə sahib olur, bir sözlə, özlərini inkişaf etdirirlər.

Muxtar respublikamızda könüllülük fəaliyyətinin genişlənməsində Naxçıvan Muxtar Respublikası Gənclər Fondu xüsusi rol oynayır. Fond çox sayda gənc könüllünü özündə birləşdirib. Fond tərəfindən həyat keçirilən könüllülük proqramları çərçivəsində könüllülər müxtəlif istiqamətlər üzrə keçirilən layihə və tədbirlərdə fəal iştirak edir, eyni zamanda onların inkişafı, motivasiyası üçün də tədbirlər keçirilir. Ötən il Azərbaycan Respublikası Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) birgə təşkilatçılığı ilə muxtar respublikada könüllülük fəaliyyəti həyata keçirən qurumların könüllülər üzrə məsul şəxslərinin iştirakı ilə "Könüllülərlə İş üzrə İdarəçilərin İnkişaf Proqramı"na start verildi ki, bu layihə könüllülərlə iş sahəsində yeni nailiyyətlərin əldə olunmasında, könüllülük fəaliyyətinin daha da genişlənməsində xüsusi rol oynadı. Hər il könüllülük fəaliyyəti ilə seçilən gənclər mükafatlandırılır. Son iki ildə iki könüllümüz ölkə üzrə "İlin könüllüsü" seçilib.

Bu gün könüllülərimiz yalnız ölkəmiz üçün deyil, dost, qardaş ölkələr üçün də öz yardımlarını əsirgəmir, onlarla birgə xeyirxahlıq, həmrəylik nümayiş etdirirlər. Bu yaxınlarda qardaş Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra ölkə başçısının göstərişi ilə Azərbaycanın könüllü gəncləri də yardım üçün getdilər. Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə "ASAN Könüllüləri", "Gənc Könüllülər", "BİR Könüllü", "Aqrar İnkişaf Könüllüləri", "Naxçıvan Könüllüləri", "Böyük Qayıdış Könüllüləri" və "Ekokönüllülər" təşkilatlarının üzvləri arasından seçilən 100 nəfər könüllü gəncimiz hazırda zəlzələnin baş verdiyi bölgələrdə faciədən zərərçəkmiş vətəndaşlara yardımların paylanılması, əhalinin istiqamətləndirilməsi, qeydiyyat və müxtəlif əlaqələndirmə işlərində iştirak edirlər. Belə ki, Azərbaycan könüllüləri Kahramanmaraş şəhərinin mərkəzində çadır qərargah məntəqəsinin salınmasını başa çatdırıb və paylama (təminat) mərkəzini qurandan sonra dörd fərqli məntəqədə qida, yardım və dərmanların paylanılması işini təşkil edir, ərazilərin tullantılardan təmizlənməsi və digər fəaliyyətləri həyata keçirirlər. Həmçinin könüllülərimizin bir qrupu yerli əhalinin mobil telefonları üçün enerji təminatına imkan yaradan enerji yükləmə mərkəzində xidmət edirlər. Eləcə də tibb təhsilli könüllülərimiz Türkiyə Gənclik Vəqfi-TÜGVA-nın yaxınlıqdakı zərərçəkmiş




kəndlərə göndərilən səyyar qruplarının tərkibində səfər edib, müvafiq yardımların paylanmasında fəal şəkildə iştirak edir, sakinlərə tibbi xidmət göstərirlər. Ötən müddət ərzində könüllü nümayəndə heyətimiz Türkiyə Respublikası Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) 10 min nəfər zərərçəkmiş şəxsin yerləşdirildiyi çadır düşərgəsində də olub, gigiyenik malların paylanılması və uşaqların əylənməsi və psixoloji yardım almaları üçün köməklik göstəriblər. Həmçinin onlar Türkiyədə olan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (FHN) qərargahına baş çəkib, səlahiyyətli şəxslər ilə müvafiq görüş keçirib və əlaqələndirmə müzakirələri aparıblar. Ötən günlərdə Azərbaycan Gənclər Fondunun rəhbərliyi ilə bir daha görüşən TÜGVA rəhbərliyi könüllülərimizin göstərdikləri fədakarlığa görə təşəkkürlərini bildirib. Görüş zamanı Azərbaycan Könüllüləri ilə Türkiyə Könüllüləri arasında fəaliyyətlərin effektiv əlaqələndirilməsi üzrə geniş müzakirələr aparılıb. Qeyd edək ki, hazırda Naxçıvan Gənclər Fondunun 20 nəfər könüllüsü Azərbaycan Könüllülərinin tərkibində Türkiyədə fəaliyyət göstərir. Azərbaycan könüllülərinin digər qrupunun da yola salınması gözlənilir.

Fevralın 15-də Azərbaycan könüllüləri birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müraciət ediblər. Müraciətdə deyilir: "Yaşanan ağır faciəyə möhtərəm cənab Prezidentin və Sizin həssas münasibətiniz, yardımla bağlı verdiyiniz göstərişlər biz gəncləri hədsiz qürurlandırmaqla yanaşı, öz insansevərliyimizi nümayiş etdirməyə şərait yaratdı... Bütün Azərbaycan xalqının səfərbər olduğu humanitar yardım aksiyasına qoşularaq Türkiyə xalqının yanında olmağı öz mənəvi borcumuz hesab edirik. Təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına Azərbaycan dövləti və xalqı tərəfindən verilən dəstəyə öz töhfəmizi vermək üçün gecə-gündüz demədən var-gücümüzlə çalışırıq. Biz könüllülər bu xeyirxah əməllərin iştirakçısı olmaqdan qürur və şərəf duyuruq..."

*Yalnız könüllü gənclərimiz deyil, əsrlərboyu xeyirxahlıq, fədakarlıq və təmənnasız kömək ənənələrini yaşadan xalqımız könüllü olaraq öz doğma qardaşlarına dəstək olmaq üçün əlindən nə gəlirsə əsirgəmədi. Azərbaycan könüllüləri bütün dünyaya bir daha insansevərlik, həmrəylik və xeyirxahlıq örnəyi olmaqla Prezident cənab İlham Əliyevin* ***"Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır"*** *kəlamını əməli işi ilə də layiqincə doğrultdu.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Ölkə başçısının imzaladığı Sərəncam muxtar respublikada 43 min 881 əmək pensiyaçısına şamil olunaraq icra edilmişdir

Əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə pensiyaların mütəmadi olaraq artırılması həyata keçirilən sosial islahatların əsas istiqamətlərindəndir. Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2023-cü il 10 fevral tarixli Sərəncamına əsasən ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2023-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin məbləği 14,7 faiz indeksləşdirilərək artırılıb. Bundan başqa, ölkə başçısı tərəfindən imzalanmış "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 8 fevral tarixli Qanununa əsasən minimum əmək pensiyasının məbləğinin 1 fevral 2023-cü il tarixdən 280 manata çatdırılması təsdiq edilmişdir.

Muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsindən və minimum məbləğinin artırılmasından irəli gələn vəzifələr Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən icra edilib. Qısa müddət ərzində fond tərəfindən pensiyaların sığorta hissəsinin indeksləşdirilməsi və minimum məbləğinin artırılması prosesləri başa çatdırılıb və hesablanmış artımlar pensiyaçıların ödəniş kartlarına köçürülüb. Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi muxtar respublika üzrə 43 min 881 əmək pensiyaçısına şamil edilib. İndeksasiyanın həyata keçirilməsi məqsədilə fondun büdcəsindən hər ay 2 milyon 353 min 280 manat əlavə vəsait ayrılıb. Qanunvericilikdə edilmiş dəyişikliyə uyğun olaraq qulluq stajına görə əlavə alan pensiyaçıların da pensiyaları cari ildən ilk dəfə olaraq indeksləşdirilərək artırılıb.

Əmək pensiyalarında müvafiq artımların aparılması ilə yanaşı, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublikada fərdi uçot sistemində qeydiyyatda olan 186 min 596 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya sığorta kapitalı məbləğləri indeksləşdirilməklə 13,9 faiz artırılıb.

Qeyd edək ki, muxtar respublikada fevral ayı üçün ödənilən pensiyalar ayın 6-da başa çatdırılıb. Buna görə də yanvar və fevral aylarının indeksasiya artımları və fevralın 1-dən minimum pensiyanın artım məbləği hesablanaraq fevralın 16-sı pensiyaçılara ödənilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

### *İtmişdir*

Mirzəyeva Hürnisə Kəlbahəsən qızının adına olan 3140 inventar nömrəli evin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər, Hacıvar kənd sakini Cəfərov Allahverdi Həsən oğlunun adına olan JN-0096 inventar nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

***

Məmmədov Emin Zülfüqar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Abdullayev Sadıx Canpolad oğlunun adına olan 0200635742 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 125